**UOT: 781.**

**Oqtay Quliyev**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: oqtay.quliyev1994@gmail.com**

# SƏİD RÜSTƏMOVUN KONSERTİNİN QARMONDA İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**: Təqdim olunan məqalədə Səid Rüstəmovun tar ilə xalq çalğı alətləri orkestri üçün bəstələdiyi konsertin qarmon üçün köçürülməsindən və tədrisindən bəhs olunur. Məqalənin giriş hissəsində qarmon ifaçılığının bütün dövrlərdə Azərbaycan musiqi mədəniyyətində böyük rolundan danışılır. Qeyd olunur ki, müasir dövrümüzdə qarmon ifaçılığı daha yüksək bir səviyyəyə çatmışdır. Görkəmli bəstəkarlarımız: Süleyman Ələsgərov qarmon üçün xüsusi olaraq “Lirik pyes” və “Skerso”, Tofiq Bakıxanov qarmon və piano üçün “Sözsüz mahnı”, “Daimi hərəkət”, Aygün Səmədzadə “Dağlı rəqsi” bəstələmişlər. Səid Rüstəmovun konsertində qarmon aləti özünün tembr xüsusiyyətlərini və texniki imkanlarını yüksək peşəkarlıqla nümayiş etdirir. Konsert klassik üç hissəli formada bəstələnərək, birinci hissə sonata alleqrosu, ikinci hissə “Andante”, üçüncü hissə “Rondo” formasındadır.

**Açar sözlər**: qarmon, konsert, bəstəkar əsərləri, muğam, rəqs, Zakir Mirzəyev.

Müasir dövrümüzdə respublikamızda qarmon ifaçılığı daha yüksək səviyyəyə çataraq, qarmon ifaçıları xalq musiqisi, rəqslər və muğamlarla yanaşı bəstəkar əsərlərinə də xüsusi diqqət yetirirlər. Görkəmli bəstəkarlarımız: Süleyman Ələsgərov qarmon üçün xüsusi olaraq “Lirik pyes” və “Skerso”, Tofiq Bakıxanov qarmon və piano üçün “Sözsüz mahnı”, “Daimi hərəkət”, Aygün Səmədzadə “Dağlı rəqsi” bəstələmişlər (4; s. 81). Qarmon alətinin sirlərinə dərindən bələd olan Zakir Mirzəyev özünün “Muğam və rəqs” kompozisiyasında qarmonun tembr xüsusiyyətlərini və texniki imkanlarını peşəkarlıqla nümayiş etdirmişdir. O, Tofiq Bakıxanovun simfonik orkestr üçün “Birinci Konsert”ini, “Segahsayağı” və “Rondo”sunu Vyanada Üzeyir Hacıbəylinin büstünün açılışına həsr olunan konsertdə ifa edərək Azərbaycan qarmonunu bir daha sevdirmişdir.

Müasir dövrümüzün qarmon ifaçıları artıq nüfuzlu müsabiqə və festivallarda yer alaraq digər alətlərdən geri qalmır və yüksək səviyyə nümayiş edirlər. Qarmonun tədrisində istifadə olunan və qarmon üçün köçürülən müxtəlif janrlı əsərlər yaranmaqla, əvvəlki illərlə müqayisədə əsərlərin rəngarəngliyi özünü büruzə verir. Tələbələrin Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini öyrənib ifa etmələri üçün bu əsərlər qarmon üçün işlənib köçürülməklə fortepianonun müşayiəti ilə ifa olunur. Qarmonun kökü ilə fortepianonun kökü arasında yarım ton fərq olması (qarmon in H) ifa olunan əsərlərin fortepiano partiyalarının yarım ton aşağı köçürülməsini tələb edir. Artıq bu günümüzə kimi qarmonun tədrisində geniş istifadə olunan, qarmon ilə fortepiano üçün çoxlu sayda əsərlər köçürülmüş və məcmuə şəklində nəşr etdirilmişdir. Bu əsərlər sırasında S.Rüstəmovun tar ilə fortepiano üçün Konserti, Z.Bağırovun "Konsert", Tofiq Bakıxanovun "Konsert"; xarici ölkə bəstəkarlarından İ.S.Baxın və Q.F.Hendelin 10 polifonik pyesi, P.İ.Çaykovskinin "Güllər valsı", A.Vivaldinin "Konsert", "İlin fəsilləri" silsiləsindən "Yay" və onlarla başqa-başqa əsərlər də yer alıb (4; s. 87).

Səid Rüstəmovun "Tar ilə xalq çalğı alətləri orkestri üçün üçhissəli konsert"inin birinci hissəsi klassik sonata formasında bəstələnib, ekspozisiya, işləmə və reprizadan ibarətdir (3; s. 23). Bu hissə oynaq tempdə, 4\4 ölçüsündə fortepianonun beş xanəli giriş mövzusu ilə başlayır. Girişin melodiyası sekvensiya şəklində aşağı hərəkət edən melodik bir fiqurasiya olub, ekspozisiyada əsas mövzunu qarmon aləti ifa edir. Lirik və zərif xarakterli əsas mövzu qarmonda marşsayağı şəkildə aydın və konkret ritmlə ifa olunmalıdır:



Konsertin birinci hissəsi fortepianoda h-moll, qarmonda isə c-moll tonallığında səslənir. "Do" mayəli "Şüştər" məqamında bəstələnmiş əsas mövzu yarım, çərək və səkkizlik notlardan tədricən onaltılıq notlara bölünərək onun melodiyasında giriş mövzusunun intonasiyalarından istifadə olunması ilə hər iki mövzu arasında sıx əlaqə, ideya monolitliyi yaranır. Əsas mövzu öz quruluşuna görə kvadratşəkilli cümlələrdən ibarət olub, birinci sual təəssüratını yaradır:



Mövzunun ikinci cümləsi tamamlayıcı pərdənin bir oktava zilindən başlayıb, mayə pərdəsinə enərək cavab cümləsi kimi səslənir. Burada ifaçı qarmonun texniki imkanlarını göstərmək üçün müxtəlif texniki vasitələrdən istifadə edir və mövzu yuxarı-aşağı istiqamətdə hərəkət edən qammavari fiqurasiyalara çevrilir. Əsas mövzunu fortepiano aləti sadə akkordlarla müşayiət edir və əsas mövzunun inkişafında fortepiano fakturası ritmik cəhətdən xırdalanaraq sinkopalı ritmdə akkordlarla müşayiətə keçir:

Solist yuxarı hərəkət edən qammavari melodiya ilə bağlayıcı partiyanı davam etdirməyə başlayır. Bağlayıcı partiya intonasiya quruluşuna görə əsas mövzu ilə oxşardısa, ritmik cəhətdən tətbiq olunan fiqurasiyaların quruluşuna görə əsas mövzudan fərqlənir. Bağlayıcı partiyanın ortasında solist ilə fortepiano arasında şərh olunan qısa deyişmə ekspozisiyaya yeni səslənmə gətirərək fortepiano intonasiya və ritmik cəhətdən daha dolğun faktura ilə çıxış edir. Deyişmədən sonra solist yenə öz melodiyasını davam etdirir. Fortepiano solistin partiyasını daha iki xanə davam etdirərək tempi azaldır və öz melodiyasını aşağı registrdə bitirərək köməkçi mövzunu hazırlayır.

Əsas mövzunun əksinə olaraq köməkçi mövzunu fortepiano ağır tempdə (Andante), 4\4 ölçüsündə emosional tərzlə ifa etməyə başlayır. Köməkçi mövzu səkkiz xanəli klassik üslublu period olub 2+2+4 sxemində qurulmuşdur. Melizmlərlə zəngin olan bu hissədə qarmon alətində ifa olunacaq muğam guşələri intonasiyalarından, xırdalıqlardan daha geniş istifadə olunmuşdur. Konsertin işləmə hissəsində bəstəkar mövzular, tonallıqlar mübarizəsi, kəskin təzadlar tətbiq etməyərək bu hissəni öz yaradıcılığına xas olan melodik inkişaf əsasında qurmuşdur. Qarmonun ifasında temp dəyişiklikləri, mənalı fermatalar işləmə hissəsinin musiqi məzmununu zənginləşdirib, onu qabarıqlaşdırır. Dörd musiqi epizodundan ibarət olan işləmə ekspozisiyadan sonra heç bir hazırlıq olmadan başlayır: A+B+C+B.

B epizodunda ifaçı tempi bir qədər sürətləndirərək "Alleqretto"ya çatdırmalı və bununla da musiqiyə oynaqlıq gətirməlidir. Polifonik elementlərin qabarıq nəzərə çarpdığı C bölümündə solistin partiyasını ilk xanələrdən fortepiano aləti imitasiya edir. Konsertin reprizası klassik repriza üslubunda bəstələnib, əsas mövzunun bir oktava zildə təkrarıdır. Kadensiya və koda "Çahargah" muğamı əsasında bəstələnərək fortepianonun marşsayağı akkordlarla müşayiəti ilə birinci hissə başa çatır.

Konsertin ikinci hissəsi mürəkkəb üçhissəli formada, instrumental mahnını xatırladaraq giriş və kodaya malik üç dairədən ibarətdir. Olduqca lirik və zərif xarakterli ikinci hissənin giriş mövzusu fortepianonun ifasında ağır tempdə başlanır. Mövzunun ilk dörd xanəsi tersiya və kvarta intervalları üzrə yuxarı is-

tiqamətdə hərəkət edən sekvensiya halqasından ibarətdir:



Fortepiano fis-moll tonallığında müşayiət edir və qarmon aləti g-moll tonallığında əsas mövzunu səsləndirir:



Mövzunun cavab cümləsi yenə də hər bir halqası üç xanədən ibarət olan, aşağı istiqamətdə tersiyalarla enən sekvensiya üzərində qurulub.

A cümləsi iki dəfə təkrar olunur və ikinci təkrarı zamanı cümlə ritmik, intonasiya cəhətdən bir qədər dəyişir. Qarmonun registrinin zilləşməsi ilə mövzunun səslənmə palitrası da yeniləşir.

Konsertin üçüncü hissəsi "Rondo" formasında şux bir melodiya olub, dörd böyük musiqi epizodundan ibarətdir: A+B+C +A. Bu hissə "Alleqro" tempində birbaşa fortepianonun müşayiəti ilə qarmonun solo ifasında başlayır:



Fortepianoda verilən bir xanəli melodik fiqurlar solistin ifa etdiyi musiqi frazaları arasında səslənərək bağlayıcı rolunu oynayır. Konsertin kodası "Düqah" məqamı üzərində qurularaq A epizodunun ilk dörd xanəsinin olduğu kimi təkrarıdır. Kodanı ifaçı daha təntənəli şəkildə təfsir etməli, sonuncu akkordları isə xüsusilə qabarıq səsləndirməklə əsəri başa çatdırmalıdır.

Beləliklə, Səid Rüstəmovun tar ilə xalq çalğı alətləri orkestri üçün konserti qarmon üçün köçürülərək, qarmon ifaçılığında və tədrisində böyük üstünlüklə tətbiq olunur.

**Ədəbiyyat siyahısı:**

1. Bakalavr pilləsi qarmon ixtisası üçün ixtisas-not fənni üzrə Proqram. Tərtibçi: Əzizov R. M. , Dadaşov X. İ. B. Ecoprint, 2019, 32 s.
2. Dadaşov X. İ. Qarmon məktəbi. Uşaq musiqi və incəsənət məktəblərinin qarmon sinifləri üçün dərslik. B. Şirvannəşr, 1999, 92 s.
3. Rzayeva G. Səid Rüstəmov yaradıcılığının Azərbaycan musiqi mədəniyyətində rolu. Monoqrafiya. I Cild. Bakı, Ecoprint, 2015, 87 səh.
4. Dadaşov X. Azərbaycan musiqi təhsilində qarmon alətinin tədris tarixi və metodikası. "Konservatoriya" jurnalı 2020 №1-2 (47), səh. 81-87.

**Огтай Гулиев**

## ОСОБЕННОСТИ ИСПОЛНЕНИЯ КОНЦЕРТА САИДА РУСТАМОВА НА АККОРДЕОНЕ

**Резюме:** Представленная статья посвящена передаче и преподаванию концерта Саида Рустамова для тара и оркестра народных инструментов для гармона. Во вступительной части статьи говорится о большой роли гармонического исполнительства в азербайджанской музыкальной культуре всех времен. Отмечается, что в наше время исполнительское мастерство гармонистов достигло более высокого уровня. Наши известные композиторы: Сулейман Алескеров сочинил «Лирическую пьесу» и «Скерсо» для гармона, Тофик Бакиханов написал «Бессловесную песню» для гармона и фортепиано, «Постоянное движение», Айгюн Самедзаде «Горный танец». В концерте Саида Рустамова гармонь профессионально демонстрирует свои тембровые особенности и технические возможности. Концерт сочинен в классической трехчастной форме, первая часть-в форме сонатного Аллегро, вторая часть-в форме «Анданте», третья-в форме «Рондо».

**Ключевые слова**: гармонь, концерт, произведения композитора, мугам, танец, Закир Мирзоев.

**Ogtay Guliyev**

# FEATURES OF PERFORMING OF SAID RUSTAMOV'S CONCERTO ON ACCORDION

**Summary**: The presented article deals with the transfer and teaching of the concerto composed by Said Rustamov for tar and an orchestra of folk instruments for accordion. The introductory part of the article discusses the great role of accordion playing in the music culture of Azerbaijan at all times. It is noted that in modern times, accordion playing has reached a higher level. Our famous composers: Suleyman Alasgarov composed "Lyrical play" and "Skerso" for accordion, Tofig Bakikhanov composed "Wordless song" for accordion and piano, "Constant movement", Aygun Samadzadeh "Mountain dance". At Said Rustamov's concerto, the accordion demonstrates its timbre features and technical capabilities with high professionalism. The concerto is composed in the form of a classic three-part, the first part is in the form of a sonata allegro, the second part in the form of "Andante", the third part in the form of "Rondo".

**Key words:** accordion, concerto, composer's works, mugam, dance, Zakir Mirzayev.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 19. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaş-zadə**